# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

## Milli qiymətləndirmə 2009

Testin tarixi | / | / 2009

Gün Ay

# IV sinif

# ANA DİLİ

## *Test kitabçası*

Məktəbin adı ______________________

Şagirdin kodu ______________________

Şagirdin adı ______________________

Soyadı Adı

## Təlimat

Bu gün sən  ana dilindən suallara cavcab verəcəksən. Sual kitabçasında 74   sual var. Suallar iki hissədən ibarətdir. Birinci hissə qrammatika, ikinci hissə oxu üzrə suallardır. Sualları diqqətlə oxu və mümkün qədər çox suala cavab verməyə çalış.

## I hissə. Qrammatika

**1. Sözlərin hansının yazılışı səhvdir?**

A) yüngülvari  B) uşaqmış  C) kompot  D) muhum

**2. Omonim sözü tap.**

A) baş  B) ətək  C) qaz  D) göz

**3. Məntiqi ardıcıllığı tamamla.**

Az,  bir qədər, xeyli  -----------

A) sonuncu  B) birgə  C) çoxlu  D) bir az

**4. Fərqli zamanı göstər.**

A) kəsəcək  B) biləcək  C) əyləşdi  D) görəcək

**5. Ardıcıllığı davam et.**

Yanvar  Mart  May  ?

A) Avqust  B) Dekabr  C) İyul  D) Oktyabr

**6. Hansı söz birləşməsi səhvdir?**

A) şad xəbər  B) köhnə insan  C) soyuq su  D) isti çay

**7. Şəxs və yer adları bildirən sözlər hansı nitq hissəsidir?**

A) əvəzlik  B) sifət  C) say  D) isim

**8. Hansı cümlədə ikinci dərəcəli üzv yoxdur?**

A) Nənəm maraqlı nağıllar danışır.  B) Orxan həyətdə oynayırdı..
C) Dəniz dalğalanır  D) Aybəniz “5” aldı.

**9 .** Qopdu bayırda tufan,
Uğuldadı yel, boran.
Döyüldü pəncərə bərk,
Açdı qapını külək.

**Verimiş şeir parçasında felin keçmiş zamanında neçə söz işlənmişdir?**

A) 5  B)3  C) 4  D)2

**10. Yalnız sözdüzəldici şəkilçilər olan sıra hansıdır?**

A)ın$^{4}$ , a$^{2}$ , ı$^{4}$ , -da$^{2}$ , -dan$^{2}$
B)çı$^{4}$ , lı$^{4}$ , sız$^{4}$ ,lıq$^{4}$
C)lar$^{2}$ ,dı$^{4}$ , çı$^{4}$ , laş$^{2}$
D)acaq$^{2}$ , çı$^{4}$ ,da$^{2}$

**11.“k” hərfi nə vaxt “y” hərfinə keçir?**

A)yiyəlik, yönlük, təsirlik hallarında B)adlıq, yiyəlik, yerlik hallarında
C)yerlik, çıxışlıq hallarında D)adlıq, yerlik, çıxışlıq hallarında

**12.“Gəncəni seyr etməkdən doymaq olmur” cümləsində “Gəncəni” sözü ismin hansı halındadır?**
A)adlıq B)yiyəlik C)təsirlik D)yönlük

**13.“Onun qələmi stolun üstündədir” cümləsində yiyəlik halda olan neçə söz var?**
A) 2 B) 3 C) 1 D) 4

**14. Kitab – kağızdan düzəlib,bəs köynək?**
A) düymə B) əşya C) sap D) parça

**15. Neçə sözdə qalın saitlərin ahəngi var?**
Sarı, məktəbli, səadət, siyasət, Sona, bacı, hünər, arxalı, kolluq
A) 1 B) 2 C) 3 D) 5

**16.“Xəstə yavaş-yavaş sağalırdı” cümləsində “xəstə” hansı nitq hissəsidir?**
A) isim B) əvəzlık C) sifət D) say

**17.Əmr cümləsini göstər.**
A)Azərbaycan əsgərinə eşq olsun B)Çox eşit, az danış
C)Torpağımız geri alınacaqmı D)Biz tədbirə hazırlaşırıq

**18.Quruluşca mürəkkəb olmayan söz hansıdır?**
A) ev-eşik B) Aygün C) rəngkarlıq D) ürəyiaçıq

**19.Zahiri əlaməti bildirən sifəti göstər.**
A) kövrək B) ağbəniz C) çalışqan D) hazırcavab

**20. İsimlərdən birinin sualı fərqlidir.**
A) qələm B) balta C) maral D) idmançı

**21. Sırada “?” işarəsinin yerinə hansı hərf olmalıdır?**
T A P D ? M
A) R B) I C) Ü D) E

**22. Sonuncu adı tap.**
Rafət Tərlan Natiq Qulam ?
A) Məmməd B) Bəhruz C) Eltac D) Ramil

**23. İki sözdüzəldici şəkilçisi olan sözü tap.**
A) meşələrin B) dulusçuluq C) kitabxana D) balıqçı

**24.Hansı cümlədə “O” işarə əvəzliyi kimi verilmişdir.**
A) O, şeirini mənə oxudu. B) O kitab maraqlıdır.
C) O, bizim həyətdə yaşayır. D) O, bizə gəldi.

**25.Əzbər bildiyin dörd misradan ibarət bir şeir parçası yaz. Fellərin altından xətt çək.**
___________________________________________
___________________________________________
___________________________________________

**26.Uyğun olmayan sözü tap.**
A) çay B) kofe C) fanta D) pendir

**27.“Fəaliyyət” sözündə neçə səs var.**
A) 6 B) 5 C) 7 D)8

**28. Sinonim sifətlərin cərgəsini göstər.**
A) qəmli, qüssəli, kədərli
B) ürək, qəlb, köks
C) acgöz, gözütox, xəsis
D) baş, ətək, göz

**29. Hansı söz uyğun deyil.**
A) sentyabr B) çərşənbə C) oktyabr D)dekabr

**30. Buraxılmış hərfi yerinə qoyun. “T.....atr”**
A) y B) e C) i D) a

**31.Hansı sözü sətirdən-sətrə keçirmək olmaz?**
A) motor B) mürəkkəb C) pilləkən D) axır

**32.“Yaxşı oxu........ üçün çox çalış.......... lazımdır” cümləsində nöqtələrin yerinə hansı şəkilçini artırmaq lazımdır?**
A) maq B)mək C) du D) cu

**33. “Dəmir qapı” söz birləşməsinin hər iki tərəfi hansı nitq hissəsi ilə ifadə olunmuşdur?**
A) isim, fel
B) isim, isim
C) isim, sifət
D) əvəzlik, isim

**34. Hansı sıradakı söz ancaq incə dodaqlanan saitlərdən ibarətdir?**
A)boyun B)mükafat C)böyük D)Ülkər

**35.Verilmiş sözlərin biri eyniköklü deyil.**
A) bağça B) bağlıq C) bağban D) bağırsaq

**36.Sadə sözlər hansı cərgədə verilmişdir?**
A) bağayarpağı, dəftər, dostluq
B) dəvəquşu, çəmənlik, atlar
C) ağac, maşın, meyvə
D) yazıçı, sürücü, rəngsaz

**37.” _________ ======== “ sxeminə uyğun cümləni göstərin.**
A) Sürücü maşını sürdü.
B) Dərs başlandı.
C) Uşaqlar həyətə çıxdılar.
D) Tahir ağıllı oğlandır.

**38. “----------- yazı yazır.” Cümləsində nöqtələrin yerində mübtəda kimi işlənən əvəzlik hansıdır?**
A) Kəmalə B) O C) Şagird D) Biz

**39. Sözün tərkibi nədən ibarətdir?**
A) kökdən
B) kök və şəkilçidən

C) şəkilçidən D) yalnız leksik şəkilçilərdən

**40. “ Siz neçənci sinfin şagirdlərisiniz” cümləsinin sonunda hansı durğu işarəsi qoyulmalıdır?**
A) . B) ? C)! D) :

**41. Cəm şəkilçisi qəbul etməyən söz hansıdır?**
A) əhali B) dəftər C) göl D) şəhər

**42. “.............. bacım şagirddir” cümləsində nöqtələrin yerinə hansı sözü yazmaq daha münasibdir?**
A) yekə B) kiçik C) xırda D) iri

**43. Rəng bildirən sifətlər hansılardır?**
1. utancaq 2. qırmızı 3. enli
4. ağ 5. şirin 6. sarı
A) 2, 3, 4 B) 3, 5, 6 C) 2,4, 6 D) 1, 2, 5

**44. “ Prezident vətənə sabah qayıdacaq” cümləsində xəbərdən əvvəlki söz hansı suala cavab verir?**
A) neçə? B) nə zaman? C) kim? D) nə etdi?

**45. Hansı halda olan isimlərlə mübtədanın sualı eynidir?**
A) yönlük B) yerlik C) adlıq D) təsirlik

**46. Fərqli adı tap.**
A) Murad B) Abbas C) Qəmər D) Mahir

**47. Hansı söz həm xüsusi isim, həm də sifət kimi işlənə bilər?**
A) Sevil B) Güllü C) Nərgiz D) Nəcəf

**48.” Uzaqdan mahnı səsi eşidilir” cümləsində xəbər hansıdır?**
A) mahnı B) uzaqdan C) eşidilir D) səsi

**49. Yalnız xüsusi isimlər olan cərgəni göstər.**
A) Sumqayıtlı, Gəncə, Kür B) Kənd, Fazil, İstanbul
C) Bakı, İngiltərə, Behbud D) Azərbaycanlı, Millət, Vətən

**50. Antonim sifətləri göstər.**
A) az-çox B) yorğan-döşək C) isti-soyuq D) ala-bula

.

## II hissə. Oxu

### Daşaltı yasaqlığı

Təəssüf ki, Qarabağımızın dilbər guşələrindən biri olan Şuşa və Daşaltı qoruğu indi düşmən tapdağı altındadır. Daşaltı yasaqlığı 1988-ci il 24 noyabrda yaradılmışdı. Yasaqlıq "Topxana" adlanan sahədəki meşə fondunun və Şuşa ətrafı torpaq sahələrinin hesabına yaradılmışdı. Topxana Qarabağın ən böyük, ən ulu təbiət və tarix abidəsidir. Topxana dünyanın nadir çiçəyi hesab edilən Xarı bülbüllə, saysız-hesabsız, min bir dərdin dərmanı olan digər çiçəklərlə, bitkilərlə zəngindir. Yasaqlığın ərazisi zəngin meşə, kol və ot bitkilərinin təbii muzeyidir. Qarabağ müharibəsi əslindəTopxanadan başlanmışdır. Nadir təbiət abidələrini məhv edib yerində zavod tikmək istəyən ermənilərə qarşı xalqın hiddəti coşdu. Xalq ayağa qalxdı. Lakin təəssüf ki, düşmən öz himayədarlarının köməyi nəticəsində nəinki Qarabağı, hətta ətraf rayonları da işğal etdi.

**51. "Daşaltı yasaqlığı" söz birləşməsində ikinci tərəfi hansı sözlə əvəz etmək olar?**
A) qoruğu B) bağı C) muzeyi D) xiyabanı

**52.Mətnə əsasən nadir çiçək hesab olunan bitki hansıdır ?**
A) kəklikotu B) qızılgül C) bənövşə D) xarı bülbül

**53. "Daşaltı Yasaqlığı" harada yerləşir ?**
A) Qubada B) Qəbələdə C) Şuşada D) Şirvanda

**54.Mətnə əsasən təbiət abidələrini məhv edib, yerində zavod tikmək istəyən kimlərdir ?**
A) azərbaycanlılar B) ruslar C) gürcülər D) ermənilər

### Bal arısı

Baharda hər ana arı, erkək və işçi arılar yetişdirmək üçün münasib yerdə pətək düzəldir. Bal arısı mum ifraz edir və bundan xırda gözcüklü şan qurur. Hər gözcüyə ana arı bir yumurta salır. Bal arısının hər pətəyində ana arı ilə bərabər işçi və erkək arı olur.

**55. Arılar pətəyi nə vaxt qurur ?**
A) qışda B) yayda C) baharda D) payızda

**56. Nöqtələrin yerinə uyğun sözü yaz .**
Bal arısı .............. ifraz edir.

**57. Bal arısının hər pətəyində nə olmur ?**
A) ana arı B) işçi arı C) erkək arı D) qarışqa

**58. Baharda ana arı nə üçün münasib yerdə pətək düzəldir ?**
A) döyüşçü arılar yetişdirmək üçün B) dişi və erkək arılar yetişdirmək üçün
C) erkək və işçi arılar yetişdirmək üçün D) körpə arılar yetişdirmək üçün

### Hind nağılı

Bir dəfə hökmdar müdrik qocadan soruşdu :
- Döyüşdə hər şeydən çox nə lazımdır ?

Qoca cavab verdi :
- Qibleyi-aləm, hər şeydən çox igidlik lazımdır !

Hökmdar qəzəbləndi :

- Bəs qüvvə, bəs silah ?! Yoxsa sən bunları unudursan ?!
- Hökmdar, bunları unutmuram, ancaq döyüşçünün ürəyində igidlik olmasa, ona nə silahı, nə də qüvvəsi kömək etməz, - deyə müdrik qoca cavab verdi.

**59. Döyüşdə insana hər şeydən əvvəl nə lazımdır ?**

A) igidlik B) dostluq C) birlik D) müdriklik

**60. Qocanın nəyi unutması hökmdarı qəzəbləndirdi ?**

A) eşqi , məhəbbəti B) dəftəri , qələmi

C) sözü , kəlamı D) qüvvəni , silahı

**61. Nöqtələrin yerinə uyğun sözləri yaz :**

- Hökmdar , bunları unutmuram, ancaq döyüşçünün ürəyində ______________________
________________________________________________________________________ deyə müdrik qoca cavab verdi.

**Ədalətli padşah**

Bir padşah ova getmişdi. Günorta zamanı onlar xörək yeməyə əyləşdilər. Yaddan çıxıb özləri ilə duz götürməmişdilər. Padşah buyurdu ki, bir adam gedib yaxındakı kənddən pulla duz alsın.

Vəziri dedi :

- Ey padşah, bir ovuc müftə alınan duzdan kəndə nə zərər toxunar ?

Padşah buyurdu ki, ədalətsizlik ən əvvəl az şeylərdən baş verir, alınan bir şey az da olsa, çox da olsa, gərək sahibinə əvəzi çatsın.

**62. Mətnə əsasən hər kəsdən əvvəl ədalətli kim olmalıdır?**

A) əsgərlər B) əyanlar C) vəzir D) padşah

**63. Müəllif nə üçün duz haqqında danışır?**

A) duz ağ və toz halında olduğu üçün B) duz yaddan çıxdığı üçün

C) duzdan az miqdarda istifadə edildiyi üçün D) həmin kənddə duz çıxdığı üçün

**64. Padşah ədaləti gözləmək üçün vəzirə necə cavab verir?**

Cavab:________________________________________________________________

**65. Mətnin əsas ideyası nədir ?**

A) ədalətlilik B) ədalətsizlik C) nahar D) ov

**Şir və siçan**

Şir yatırdı. Siçan qaça-qaça gəlib onun üstünə çıxdı. Şir oyanıb siçanı tutdu.
Siçan yalvarmağa başladı ki, şir onu buraxsın. O, şirə dedi :

- Əgər sən məni buraxsan,biz dost olarıq, mənim də sənə köməyim dəyər.

Şir siçanın bu sözünə güldü və onu buraxdı .

Bundan bir qədər sonra ovçular şiri tutub, iplə ağaca bağladılar.

Siçan şirin nəriltisini eşidib, qaça-qaça onun yanına gəldi, ipi çeynəyib qıraraq onu xilas etdi və dedi :

- Yadındadırmı, sən gülürdün, ağlına da gəlmirdi ki, mən sənə kömək edə bilərəm. İndi görürsən ki, şirin də siçanın köməyinə ehtiyacı ola bilər.

**66. Şir siçanın vədinə nə üçün güldü ?**

A) ona inanmadığı üçün
B) siçan yalan danışdığı üçün
C) siçan zarafat etdiyi üçün
D) siçanın vədi xoşuna gəldiyi üçün

**67. Verilmiş mətn hansı ədəbi növə aiddir ?**
A) təmsil B) hekayə C) nağıl D) şeir

**68. Mətnə uyğun olan atalar sözünü tap.**
A) Dost dar gündə tanınar.
B) Ata minəndə özünü unutma , atdan düşəndə atını.
C) Nə tökərsən aşına , o da çıxar qaşığına.
D) El gücü, sel gücü.

**69. Siçan nə üçün şirin yanına qaçdı?**
A) dostuna kömək etmək üçün;
B) ovçuları qorxutmaq üçün;
C) şiri meşədə tapmaq üçün;
D) özünün orada olduğunu bildirmək üçün;

**70.Siçan düzmü hərəkət etdi?**
A) Bəli, siçan verdiyi sözü yerinə yetirdi.
B) Xeyr, siçan ovçuların ovunu qaçırtdı.
C) Xeyr, siçan insanların zəhmətini yerə vurdu.
D) Bəli, təbiəti qorumaq lazımdır.

**Su çərşənbəsi**

Novruz bayramının ilk çərşənbəsi su çərşənbəsi sayılır. İlk çərşənbədə sübh tezdən duru qaynayan bulaqdan su götürürlər. Deyirlər, su çərşənbəsi günündə sübh tezdən axar duru suyun üstündən keçənlər azar-bezarını suya töküb axıdır. Adamlar buz kimi bulaq suyunda əl-üzlərini yuyar, bir-birlərinin üstünə zarafatla su çiləyərlər. Su axan yerləri təmizləyər, məhəllələrin yanından su axmaq üçün arxlar salarlar.

Adamlar su üstündə günah iş tutmayacaqlarına and içər, yaxşılıq edəcəklərinə söz verərlər.

**71. Novruz bayramı nə vaxtdan başlayır?**
A) torpaq çərşənbəsindən
B) yel çərşənbəsindən
C) su çərşənbəsindən
D) axır çərşənbədən

**72. İnsanlar nə üçün bayramı su ilə başlayırlar?**
A) su təmizlik, saflıq və sağlamlıq olduğu üçün;
B) yazda çox yağış yağdığı üçün;
C) seldən qorxduqları üçün;
D) su tapmaq çətin olduğu üçün;

**73. Mətnə uyğun atalar sözü hansı variantda verilmişdir?**
A) El yandıran şamı söndürmək olmaz.
B) Su olan yerdə dirilik olar.
C) Torpaq müqəddəsdir.
D) Od yanan yerdən tüstü çıxar.

**74. Novruz bayramı insanlara necə xeyir gətirir?**
A) Hamı bir-birinə papaq atır.
B) İnsanlar günah iş tutmamağa söz verirlər.
C) İnsanlar bir-biri ilə tez-tez görüşürlər.
D) Hamı özünə iş-güc tapır.